# Qış turizminin bənzərsiz məkanı

## "Şahdağ Turizm Mərkəzində qiymətlər 15 faiz aşağı salınıb

**Yay fəsli bir çox dünya ölkələrində qaynar turizm mövsümü kimi qəbul edilsə də, qışın bəxş etdiyi gözəlliyi və istirahət fürsətini də dəyərləndirmək lazımdır. Dünya Turizm Təşkilatının statistikasına əsasən, hər il dünyada səyahət etmək istəyənlərin təxminən 30-35%-i istirahət mərkəzlərinə məhz qış ayında üz tuturlar. Bizdə isə qış turizmi daha çox Şimal bölgəsində inkişaf edib desək, yəqin ki, yanılmarıq.**



Azərbaycanda qış turizmindən söhbət düşəndə şübhəsiz ki, ilk ağıla gələn "Şahdağ" Qış-Yay Turizm Kompleksi olur. Şahdağ milli parkının yaxınlığında salınan bu kompleksin tikintisi Azərbaycanda dağ xizək və digər qış idman növləri ilə məşğul olmaq üçün geniş imkanlar yaradır.



Qonaqlarını qəbul etdiyi ilk gündən turistlərin geniş maraq dairəsində olan kompleksin həmişə olduğu kimi, bu il də ümidləri doğruldacağı gözlənilir. Belə ki, dekabrın 14-də Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə media nümayəndələri üçün "Şahdağ" Turizm Mərkəzinə press-tur təşkil olundu. Ölkədə qış mövsümünün açılışı ilə əlaqədar təşkil olunan press-turun əsas məqsədi "Şahdağ" Turizm Mərkəzinin fəaliyyəti, mövsüm ərzində turistlərə göstəriləcək xidmətlər haqqında ictimaiyyəti məlumatlandırmaqdan ibarət idi.

Press-tur çərçivəsində media nümayəndələri "Şahdağ" Turizm Mərkəzindəki hotellər və digər turizm obyektləri ilə tanış olub, yaradılan infrastruktur, turizm və xidmət obyektlərinin fəaliyyəti, gələcək planlar haqqında ətraflı məlumat verildi. Konfransda "Şahdağ" Turizm Qapalı Səhmdar Cəmiyyətinin sədri Rodderix Leffler, Quba Destinasiya Menecmenti Təşkilatının sədri Heybət Vəliyev, Dövlət Turizm Agentliyinin media və ictimaiyyətlə əlaqələr şöbəsinin nümayəndəsi Gülnar Mustafayeva iştirak edirdilər.





"Şahdağ Turizm Mərkəzi" QSC-nin sədri Rodderix Mark Leffler mövsümün açılış mərasimində media nümayəndələrinin suallarını cavablandırdı. Bildirdi ki, ötən illə müqayisədə bu il əyləncə xidmətlərində və restoranlarda qiymətlər 15 faiz endirilib.

Onun sözlərinə görə, istər yerli, istərsə də xarici turistlərin qış turizminə marağının artdığı müşahidə olunur: "Dövlət Turizm Agentliyi yalnız Quba, Qusarda deyil, bütün ölkədə turizmin inkişafı üçün böyük işlər görür. Qış mövsümü üçün xidmətlərin sırasına əlavə avtoxizək xidməti əlavə etmişik. Biz bu gün son 6 ildə ilk dəfə olaraq sürüşmə zolaqlarının hamısını aktiv etdik. Bu, əvvəlki illərdə havanın temperaturuna görə mümkün olmamışdı. Yeni əyləncələr hesabına ötən illərlə müqayisədə yaxın həftələrdə "Şahdağ"a gələn turistlərin sayında 5 faizə yaxın artım olacağı gözlənilir. Müxtəlif fövqəladə hallar üzrə proqramımız, treninqlərdən keçmiş peşəkar işçilərimiz, 7 gün, 24 saat çalışan klinikamız var. Bu klinikada yalnız təməl ehtiyaclar ödənilmir, hətta cərrahiyyə əməliyyatı aparmaq mümkündür. Onu da qeyd edim ki, xizək sürmək üçün keçid kartlar alınan zaman artıq turistlər sığortalanır. 300-dən artıq qarlandırma avadanlıqları var və bütün xizək zolaqları bu avadanlıqlarla əhatə olunub. Bizim üçün qonaqların təhlükəsizliyi prioritet məsələdir. Bütün komandamız mövsümün açılışına qədər intensiv təlimlər keçib".



R.Leffler hansı ölkələrdən daha çox turist axını olduğunu da qeyd etdi: "Açığını desəm, "Şahdağ"a yerli turistlər daha çox gəlir. Amma qonşu ölkələrdən də turistlər çoxdur. Buna Rusiya, Qazaxıstan və Avropa ölkələrini misal göstərə bilərəm. Bundan başqa gələcəkdə bir neçə festivala ev sahibliyi etməyi planlaşdırırıq. Gələn ilin avqustunda 2-3 gün ərzində davam edəcək DJ festivalını təşkil edəcəyik. 2021-ci il üçün isə "Yay festivalı"na ev sahibliyi etmək üçün danışıqlar aparırıq".

Leffler gələn turistlərin rahatlığının təmini üçün "Şahdağ" yaxınlığında SOCAR yanacaqdoldurma məntəqəsinin tikildiyini də söylədi.

Gülnar Mustafayeva çıxışında bu il də mərkəzin təşkil edəcəyi müxtəlif əyləncələrin qış turizmini və aktiv istirahəti sevənləri cəlb edəcəyini bildirdi. O, media nümayəndələrinə qış turizminin gələcək perspektivlərindən bəhs edərək turistlərin "Şahdağ" turizm kompleksinə olan marağından danışdı: "Azərbaycanda qış turizmindən, xizəklə əyləncə mövsümündən söhbət düşəndə ilk ağıla gələn "Şahdağ" Turizm Kompleksi olur. Bilirsiniz ki, "Şahdağ" Azərbaycanın ən böyük xizək kurortu kimi tanınır. Turistlərə qış turizmini, qış əyləncə və turizm məhsulu təqdim etməyimizdə "Şahdağ" da önəmli yer tutur. Qış aylarında ölkəmizə gələn turistlər daha çox bura baş çəkir. Bu məkan turizmimizin ən gözəl nümunələrindəndir. Burada turistlər üçün maraqlı proqram - canlı musiqi, DJ, açıq havada qış yarmarkası, uşaqlar üçün əyləncələr və s. hazırlanır. Siz bütün bunların bir daha şahidi olacaqsınız".

Quba Destinasiya Menecmenti Təşkilatının sədri Heybət Vəliyev çıxışında qeyd etdi ki, "Şahdağ" Turizm Mərkəzi qış turizminin inkişafına böyük töhfə verir: "Şahdağ" nəinki turistlər, eyni zamanda yerli vətəndaşlar tərəfindən böyük marağa səbəb olub. Belə ki, xizək sürmək, əylənmək istəyən yerli vətəndaşlar bura gəlməyə üstünlük verirlər. İnanırıq ki, bu mərkəzin yeni fəaliyyəti ilə qış turizmimiz daha da inkişaf edəcək".

Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə "Şahdağ" Turizm Mərkəzində xizək mövsümünə rəsmi olaraq start verildikdən sonra xizək məktəbinin təlimçiləri tərəfindən dərslərdə iştirak etdik. Xizək sürmək üçün xüsusi xizək geyimi və ləvazimatları ilə təmin olunduqdan sonra Şahdağın ətəklərində xizək sürməyin üsulunu öyrənməyə çalışdıq. Təlim zamanı xizəkdən istifadə qaydaları, xizək sürmənin asan və təhlükəsiz yollarını öyrəndik.

Sonra mərkəzlə daha yaxından tanış olduq. Bələdçinin sözlərinə görə "Şahdağ" Turizm Mərkəzi Azərbaycanda ən müasir avadanlıqlarla təchiz edilmiş, aparıcı beynəlxalq şirkətlər tərəfindən qurulan ilk dağ-xizək kurortudur. Şahdağ milli parkının yaxınlığında salınan bu kompleks Azərbaycanda dağ-xizək və digər qış idman növləri ilə məşğul olmaq üçün geniş imkanlar yaradır. Kompleks ərazisində otellər, restoran və kafelər, SPA mərkəzləri, dörd növdə 15 ədəd kanat xətti - asma buraz yolları, müxtəlif qış əyləncələri, xizəkçilik və snoubord mərkəzi fəaliyyət göstərir. Kanat yolları aparıcı Avropa istehsalçılarına məxsus olmaqla, bir neçə formada təklif olunur. Eyni zamanda kurort ərazisində 24 saat çalışan klinika, dağ xizəkçiliyi məktəbi, geniş avtomobil dayanacağı var. Hər səviyyədə təcrübəyə malik xizəkçilər üçün müxtəlif növlərdə xizək zolaqları qonaqların ixtiyarına verilib. Bu mövsüm, əlavə bir neçə xizək zolaqları salınıb.

Turizm mərkəzindəki xizək yolları burada istirahət edənlər üçün səhər saat 8-dən açıqdır, lakin saat 17:00-dan bu yollar bağlanır.

İstirahət üçün "Şahdağ"a üstünlük verən müştərilər üçün burda müxtəlif əyləncə növləri təqdim edilir. Onların içərisində adrenalinli əyləncə növləri olsa da, daha çox kanat və xizək növlərinin turistlərin marağını cəlb etdiyinin şahidi olduq. "Şahdağ" təkcə turizm mərkəzi deyil, eyni zamanda ölkəmizin qədim tarixinin, mədəniyyətinin və bənzərsiz təbiətinin təbliğində mühüm rol oynayır. Bu isə dünya turizm sənayesində "Şahdağ" turizm kompleksinin əhəmiyyətini daha da artır.

**Xəyalə Rəis**